*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 dekabr 2016-cı il № 94 (2109) Qiymətі 25 qəpik





Səngərin gecəsi-gündüzü olmur. Səngərlər qışın sazağında Vətən sevgisiylə isinir, yayın bürküsündə əsgərin nəfəsiylə sərinləyir. Səngərdən qarşı tərəfə baxdıqca işğal olunmuş torpaqlarımızı xatırlayır, onların harayını eşidir. Bu haray onun düşüncələrini silkələyir. Qarşı tərəf gecəli-gündüzlü müşahidə altındadı. Azərbaycan əsgəri düşmənin istənilən təxribatının qarşısını almağa qadirdir... Ali Baş Komandanın əmrinə hər an hazır olan əsgərlərimiz səngərlərdən müşahidə aparır, qarşı tərəfi nəzarətdə saxlayır. Vətən üçün baxır, Vətənin gözləriylə baxır. Xırda bir tərpəniş hiss eləsə, müvafiq tədbirlər görüləcək...

Qarşı-qarşıya dayanmış iki səngər. Sevgi və hiddət. Biri Vətənimizi qoruyanların səngəridi, biri işğalçıların. Qarşı səngəri nəzarətdə saxlayan əsgərlərimizin qəlbi Vətən sevgisiylə döyünür.

Azərbaycan əsgəri döyüş növbətçiliyində diqqətlidi. Ürəyinin döyüntüləri həmişə baxışlarına cəmləşir. Qarşı tərəfə ürəyinin gözüylə baxır, qarşı tərəfi - düşmənlərin səngərlərini ürəyiylə görür, orada düşmənin istənilən tərpənişini ürəyiylə hiss eləyir. Baxışlarında qürur da var. "Vətən, sənin əsgərinəm!" - deyir baxışları. Baxışlarında dəruni bir sevgi də var: "Səndən ötrü can verməyə cümlə hazırız, Vətən!". Baxışlarında bir həsrət də var: Qarabağ həsrətidi bu həsrət. İşğal olunmuş torpaqlarımıza dönüş həsrətidi, söndürülmüş ocaqlarımızı odlandırmaq həvəsinə ad olan həsrətdi. Baxışlarında bu həsrəti kül eləyəsi bir istək də var: torpaqları işğaldan azad etmək istəyi. Bu istək onun hərbi xidmətinin başlıca qayəsidi. Azərbaycan əsgərinin döyüş növbətçiliyinin mahiyyəti budur!

Azərbaycan əsgərinin döyüş növbətçiliyi Böyük Qələbəyə köklənib. Sülh danışıqları baş tutmasa, Azərbaycan əsgəri Böyük Qələbəni döyüşlə əldə edəcək. O gün uzaqda deyil. Azərbaycan əsgərinin döyüş növbətçiliyinin mahiyyəti həm də o günü tezləşdirməkdir...

Döyüş növbətçiliyində əsgər olur, Vətən sevgisi olur, bir də hərbi vəzifə. Bu vəhdət əsgərin hərbi xidməti deməkdi. Döyüş növbətçiliyi dəyişdiriləcək. Onu başqa əsgər əvəz edəcək. Hamısı apreldə döyüşlərini, apreldə qazanılan qələbəni düşünür. Hər biri Vətənə daha böyük qələbə qazandırmaq amalıyla xidmət edir...

Bura hələlik səngərdi. Azərbaycan əsgəri bu səngəri yaxın vaxtlarda dövlət sərhədlərimizə köçürəcək!..

**"Azərbaycan Ordusu"**



“Ali Baş Komandanımızın verdiyi mükafat hamımızı qürurlandırdı”

2-ci səhifədə



“Mən də Vətənimizin müdafiəsindəyəm!”

3-cü səhifədə



İstehkamçıların döyüş vərdişləri artır

4-cü səhifədə



Millətimizə, dövlətimizə sadiq gəncliyimiz var

6-cı səhifədə

# Azərbaycan Respublikasının Müdafiə naziri MDB Müdafiə Nazirləri Şurasının iclasında iştirak edib



Noyabrın 30-da Moskva şəhərində keçirilən MDB iştirakçı dövlətlərinin Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edən Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqu ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında hərbi və hərbi-texniki əməkdaşlığın hazırkı vəziyyəti və inkişafı perspektivləri müzakirə edilib, eləcə də regional təhlükəsizliyin aktual məsələləri barədə fikir mübadiləsi aparılıb.

Sergey Şoyqu bildirib ki, hər iki ölkənin Müdafiə nazirlikləri beynəlxalq terrorla mübarizəyə qarşı birgə fəaliyyət göstərirlər. O, həmçinin hərbi əməkdaşlıq sahəsində nəzərdə tutulan planların yerinə yetirildiyini vurğulayıb.

General-polkovnik Zakir Həsənov Azərbaycan ilə Rusiya arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlığın inkişaf etdiyini bildirib və bu görüşün hər iki ölkə üçün səmərəli olacağını qeyd deyib.

Görüşün sonunda iki ölkənin Müdafiə nazirlikləri arasında 2017-ci il üçün əməkdaşlıq planı imzalanıb.

* * *



Noyabrın 30-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyinin Müdafiə nazirləri Şurasının Moskva şəhərində keçirilən növbəti iclasında iştirak edib.

Tədbir çərçivəsində general-polkovnik Zakir Həsənov MDB iştirakçı dövlətlərinin Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edən digər həmkarları ilə birgə Rusiya Federasiyasının Müdafiə Nazirliyinin binası önündə ucaldılan "Onlar Vətən uğrunda döyüşüblər" heykəltəraşlıq kompozisiyasının açılış mərasimində də iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Ali Baş Komandanımızın verdiyi mükafat hamımızı qürurlandırdı"

Soyuq payız səhəridir. Qatar stansiyada dayandı. Minik avtomobilinə əyləşib bir qədər də nahamar yola düzəldik. Bu yol bizi cəbhə bölgəsinə aparır. Yol uzunu ətrafı seyr edirəm. Səhər tezdən oyanıb mal-qaranı örüşə aparan kim, işə tələsən kim. Bu insanların çöhrələrində sabaha böyük ümid vardı. Vaxtilə güllə səsinə oyansalar da, düşmən onların yuxularına haram qatsa da, heç vaxt naümid olmayıblar. Çünki irəlidə düşmənə hər an qətiyyətli cavab verən əsgərlərimiz dayanır. Heç vaxt aman verməzlər ki, düşmən səngərdən adlasın. Bir sözlə, döyüş bölgəsinə yaxın kəndlərdə həyat öz axarında davam edir.



Yol yoldaşım sürücü orta yaşlıdı. Gedəcəyim ünvana da yaxından bələddir. Sual verməsən kəlmə kəsmirdi. Adətən bu yerlərin adamlarını çox ünsiyyətcil görmüşəm. Nə biləsən, sürücü bəlkə də təbiətcə belə birisiydi, bəlkə də nəsə dərdi vardı. Bunun səbəbini ancaq özü bilirdi. Bu cür də mənzil başına çatdıq və sağollaşıb ayrıldıq...

Hərbi hissədə böyük canlanma vardı. Sıra meydanında dəstə-dəstə düzülmüş əsgərlərə səhər baxışı keçirdilər. Cavabdeh şəxslər ərazidə idi. Onlar günün nizam qaydalarına nəzər yetirirdilər. Hava soyuq olsa da, əsgərlər xidmətdən qalmırdılar. Onlar fəaliyyətlərini lazımınca davam etdirirdilər. Həm də hərbçilər geniş miqyaslı təlimdən yeni qayıtmışdılar. Təlimdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov da olmuşdu. Əsgərlərin döyüş hazırlığı ilə yaxından tanış olan ordu rəhbərliyi onların fəaliyyətindən razı qalmışdı, döyüşçülərə gərəkli tövsiyələr vermişdi. Bizi yaxınlarda sona yetmiş təlimin yekunları ilə tanış edən zabit Seymur Həbibullahov onu da bildirdi ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cəbhə bölgəsinə səfəri zamanı ordumuzun təlimlərini izləyib, fərqlənən hərbçilərə qiymətli hədiyyələr təqdim edib.

...Ölkə başçısının əlini sıxıb qol saatı təqdim etdiyi döyüşçülərlə xidmət yerində görüşdüm. Onların üzündə sevinc vardı. İlk söhbət etdiyim kiçik çavuş Cavid Mirzəyev üç ildən artıqdır hərbi xidmətdədir. Həmişə xidməti ilə komandirlərin dərin hörmətini qazanıb. Cavid istər təlimdə, istərsə də döyüşdə əsl hərbçi kimi özünü təsdiq edib. Yardımlı rayonundan olan hərbi qulluqçunun əynindəki mundirə həmişə rəğbəti olduğunu və gələcək həyatını bunsuz təsəvvür etmədiyini hiss edirəm. Bu il yazın əvvəllərində cəbhədə gərgin döyüşlər getdi. Şanlı ordumuzun aprel zəfəri yaddaşlara əbədi həkk olundu. Döyüşlərdə kiçik çavuş Cavid Mirzəyev də iştirak edib. Qələbədə onun da payı var. Keçdiyi döyüş yolundan qürur duyur. Hərbi xidmətdən söz açan Cavid deyir:

- Ordu sıralarına gəldiyim ilk gündən nümunəvi xidmət etməyi qarşıma məqsəd qoymuşam. Hərbi nizamnamələri öyrənmişəm, onların tələblərini yerinə yetirirəm. Manqa komandiri kimi hər zaman əsgərlərin təlim-tərbiyəsi ilə məşğul oluram. Bu yaxınlarda keçirilən döyüş-atışlı təlimlərdə yüksək göstəricilər əldə etdiyim üçün komandanlıq məni



və daha bir neçə əsgəri mükafat üçün Ali Baş Komandana təqdim etdi. Çox sevinirəm ki, hərbi xidmətdə özümü doğrulda bilmişəm. Dövlətimizin başçısı qol saatı təqdim edəndə sevincimin həddi-hüdudu yox idi. Həm də bu təltif qarşımda daha böyük məsuliyyət qoydu. Ali Baş Komandanımızın verdiyi mükafat hamımızı qürurlandırdı.



Bəli, kiçik komandir əldə etdiyi uğurlarla kifayətlənmir, əksinə, bilik və bacarıqlarını bundan sonra da artıracaq. Erməni işğalı altında olan ərazilərin hərbi yolla azad edilməsində hər an döyüşə hazır olduğunu dedi.

Mükafat alanlar arasında aprel döyüşlərində fəal iştirak etmiş kiçik çavuşlardan Nemət Haqverdiyev və Xəzər Mirzəyev hərbi xidmətdən şərəf duyduğunu bildirdilər. Əslən Füzuli rayonundan olan hərbi qulluqçuların ən böyük arzusu doğma yerləri erməni işğalından azad etməkdir. Onlar bunun üçün daim bilik və bacarıqlarını artırırlar. Hər an Ali Baş Komandanın döyüş əmrini gözlədiklərini dedilər.

Belə yerdə deyiblər: Vətəni qorudun sənindi, qorumadın yadındı. Xalqımız bu məmləkəti yadelli işğalçılardan qorumaq üçün zaman-zaman müharibələrə cəlb olunublar. Neçə-neçə igid oğul və qızlarımız Vətən yolunda şəhid olublar. Buna baxmayaraq mənfur ermənilər güclü havadarların dəstəyi ilə torpaqlarımızın 20 faizini hələ də işğal altında saxlayır. Ümid edirik ki, bu işğalın da sonu olacaq. Vətənimizin ərazi bütövlüyü bərpa olunacaq. Bu missiyanı yerinə yetirəcək ordumuz döyüş hazırlığını daim artırır.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***2 dekabr 2016-cı il***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 56 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Noyemberyan rayonunun Dovex kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Kəmərli kəndində, Berd rayonu ərazisində adsız yüksəkliklərdə və Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Göyarx, Çiləbürt, Ağdam rayonunun Şirvanlı, Çıraqlı, Cəvahirli, Yusifcanlı, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Füzuli və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

## Silahlı Qüvvələrin Hərbi Akademiyasında NATO ekspertləri ilə görüş keçirilib



Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Təhsil Sisteminin müəyyən sahələrinin inkişafına yardım üzrə Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı (DEEP) çərçivəsində Silahlı Qüvvələrin Hərbi Akademiyasında NATO-ABŞ ekspertləri ilə işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Azərbaycan, Bolqarıstan, Çexiya və İsveçin hərbi tədris müəssisələrinə səfərlərin icmalı, eləcə də beynəlxalq hərbi təhsil təcrübəsinin öyrənilməsi və tətbiqi mövzularında müzakirələr aparılıb.

## Azərbaycanın və İtaliyanın Müdafiə nazirliklərinin ekspertləri arasında görüş keçirilib

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və İtaliya Respublikası Müdafiə Nazirliyi arasında 2016-2017-ci illər üçün ikitərəfli hərbi əməkdaşlıq Planı"na əsasən, hər iki ölkənin müvafiq qurumlarının hərbi strategiya və müdafiə planlaşdırması üzrə ekspertlərin görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə müdafiə siyasətinin planlaşdırılması, müxtəlif səviyyəli risklərin idarə olunması, müdafiə qabiliyyətinin inkişafı və digər aidiyyəti mövzular üzrə müzakirələr aparılıb.



## Dekabrın 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli, 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna 1 dekabr 2016-cı il tarixədək 78.192.264,96 AZN, 212.373,88 ABŞ dolları, 5635,69 avro və 5000,0 rubl vəsait daxil olub.

*Ön xətdən reportaj*

# “Mən də Vətənimizin müdafiəsindəyəm!”

*Azərbaycan Silahlı Qüvvələrinin gücü və qüdrəti, əslində, onun hazırlıqlı zabitində, gizirində və əsgərindədir. Bu gün ordumuzun şəxsi heyəti ən müasir silah və texnika ilə təchiz olunub və onları döyüşdə tətbiq etmək imkanı qazanıb. Eyni zamanda döyüşçülərimiz cəbhə bölgəsində düşmənlə üzbəüz mövqelərdə ayıq-sayıq döyüş növbəsi aparır və xalqımızın əmin-amanlığının keşiyində dayanırlar. Belə Vətən oğulları ilə cəbhə bölgəsinə ezam olunarkən yaxından tanış olduq. Həmin döyüşçülərdən biri də manqa komandiri kiçik çavuş Elxan Vilayət oğlu Əmiraslanovdur.*

Kiçik çavuş Əmiraslanov əslən Tovuz rayonunun Bayramlı kəndində dünyaya gəlib. Elxan dünyaya gələndə - 1993-cü ildə Qarabağ uğrunda qızğın döyüşlər gedirdi. Elə Ermənistanla sərhəd bölgələrimizin yaşayış məntəqələri də düşmənin hücum və atəşlərinə tez-tez məruz qalırdı.

Elxan uşaq yaşlarından Ermənistanın ölkəmizə qarşı zaman-zaman işğalçılıq niyyətində olması, keçmiş Sovetlər Birliyi dağıldığı ərəfədə havadarlarının köməyilə Vətənimizin gözəl guşəsi olan Dağlıq Qarabağı işğal etmək üçün fəaliyyətə keçməsi, Xocalıda soydaşlarımıza qarşı amansız soyqırımı həyata keçirmələri barədə çox eşitmişdi. Elə həmin vaxtlarından düşmənə qəlbində nifrət hissi boy verməyə başlamışdı.

Əsgəri yaşı çatdıqda Vətənə ləyaqətlə xidmət etməyi, Azərbaycan əsgəri adını şərəflə daşımağı qarşısına məqsəd qoymuşdu. Bu, həm də onun valideynlərinin nəsihəti idi. Elxan Əmiraslanov əsgəri xidməti dövründə valideynlərini başıaşağı edəcək heç bir hərəkətə yer vermədi. İntizamlı davranışı, döyüşçü peşəsini həvəslə öyrənməsi komandirlərində ona rəğbət yaratmışdı. Dəfələrlə komandirləri tərəfindən nümunəvi xidmətinə görə mükafatlara layiq görülmüşdü. Həmin dövrdə Elxanın qəlbində hərbi xidmətə bir həvəs yaranmışdı.

- Hərbçi peşəsi əsl kişi sənətidir, - kiçik çavuş Əmiraslanov bizimlə söhbətində dedi. - Mən əsgər kimi xidmət edərkən hərbçilərin nə qədər ciddi, işinə dəqiq və məsuliyyətli olduqlarını gördüm. Ordu mühitinin öz çətinliklərinin olmasına baxmayaraq, hərbçilərdəki bu xüsusiyyətlər mənim çox xoşuma gəlirdi. Ona görə əsgərliyimi başa vurandan sonra yenidən ordumuza qayıtdım. Buna görə heç də peşman deyiləm, əksinə, xidmətimdən razıyam və Vətənimin müdafiəsində durduğuma görə fəxr edirəm.

Elxan əsgərliyini başa vurduqdan sonra valideynlərilə məsləhətləşib və onların xeyir-duası ilə Müdafiə Nazirliyinə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmək üçün müraciət edib. Onun xahişi razılıqla qarşılanıb və kiçik çavuş Əmiraslanov dörd ildir ki, Vətənin müdafiəsindədir.

- Qarşımızda bir vəzifə var, - kiçik çavuş Əmiraslanov deyir. - Vətənimizin bizə həvalə edilmiş ərazilərini göz bəbəyi kimi qorumaq, komandirlərimizin əmr və tapşırıqlarını sözsüz, dəqiq yerinə yetirmək. Bu vəzifənin öhdəsindən gəlmək üçün bir-birimizə arxa və dayaq olmalıyıq. Əsgərlərimiz bunları yaxşı dərk edir və hərbi intizama həmişə riayət edirlər. Ona görə də postlarımızı etibarlı müdafiə edirik.



Elxanın liderlik xüsusiyyətini görən komandirləri onu manqa komandiri vəzifəsinə təyin ediblər. Kiçik çavuş da bu etimadı nümunəvi xidmətilə doğrultmağa çalışıb. Onun manqasının heyəti döyüş postunda həmişə ayıq-sayıq dayanır, bir-birilə silahdaş, dost kimi mehribandırlar. Kiçik hərbi kollektivdə xoş, işgüzar ab-havanın yaranmasında manqa komandirinin də zəhməti az deyil.

- Kiçik çavuş Əmiraslanov hazırlıqlı və etibarlı manqa komandiridir, - baş leytenant Niyət Şirəliyev bildirir. - O, öz vəzifəsini yaxşı bilir, manqasının xidmətini bacarıqla təşkil edir. Bir sözlə, öz vəzifəsinə həmişə məsuliyyətlə yanaşır və şəxsi heyət arasında hörmətə malikdir.

Kiçik çavuş hər gün postda döyüş növbətçiliyini təşkil edir, səngərdə xidmətin gedişini yoxlayır və nəzarətdə saxlayır. Döyüşçülər nizamnamə və təlimatlara uyğun gecə və gündüz döyüş növbəsi aparır, Ermənistanın hərbi bölmələrinin mövqelərini aramsız olaraq müşahidə edirlər.

Döyüşçülərin istirahəti də normal təşkil edilib. Postda növbəsini başa vuran döyüşçü havaların soyuq keçdiyi indiki dövrdə istiliyin təmin edildiyi yataqxanada yatıb dincəlir, asudə vaxtını səmərəli keçirir.

- Düşmən hərdən mövqelərimizi atəşə tutur, - kiçik çavuş Əmiraslanov deyir. - Bizim manqa təhlükəsizlik qaydalarına ciddi əməl etməklə vəziyyəti nəzarətdə saxlayır və dərhal komandirlərimizə məruzə edirik. Düşmənə də layiqincə cavab verib onu susmağa məcbur edirik. Mən də Vətənimizin müdafiəsindəyəm.

Onu da qeyd edim ki, aprel döyüşlərində kiçik çavuş Əmiraslanov da tabeliyindəki əsgərlərlə iştirak etmiş, Ermənistan ordusunun bölmələrinə layiqli zərbələr endirmişdi. Bu, həm də onun üçün bir təcrübə olmuşdu. İnanmışdı ki, torpaqlarımıza soxulmuş işğalçı qüvvələri İrəvana qədər qovmaq olar. Buna ordumuzun gücü və qüdrəti yetərincədir. Kiçik çavuş Əmiraslanov kimi Vətən oğulları Ali Baş Komandanın istənilən göstərişini, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun döyüş əmrini məsuliyyət hissi ilə yerinə yetirməyə hazırdırlar.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

AZƏRBAYCAN ORDUSU

Təlim

# İstehkamçıların döyüş vərdişləri artır

*İstənilən hərbi bölmə ön xətdə döyüş tapşırığını yerinə yetirməzdən öncə mütləq mühəndis-istehkam işləri görülməlidir. İstər hücum zamanı, istərsə də müdafiədə mühəndis-istehkamçıların rolu böyükdür. Belə ki, onlar həm döyüşə getmək üçün yol açır, həm də hücum edən düşmənin yolunda maneələr yaradırlar. Döyüşdə mühəndis-istehkamçılara məhz belə vacib tapşırıqlar həvalə olunur.*



Neçə illərdir ki, ordumuz ermənilərlə müharibə şəraitindədir. Buna görə də daim şəxsi heyətin döyüş vərdişləri təkmilləşdirilir. Əraziyə və şəraitə uyğun olaraq əsgərlər bilik və bacarıqlarını artırırlar. Qərargahda ilk görüşüb həmsöhbət olduğum zabit Nemət Məmmədov bildirdi ki, hər bir əsgərin döyüş hazırlığına ciddi önəm verilir və bu məqsədlə Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, döyüş və mənəvi-psixoloji hazırlıq istiqamətində dərslər davamlı keçirilir.

Zabit N.Məmmədov hərbi təhsilini başa vuraraq taqım komandiri kimi xidmətə cəbhə bölgəsində başlayıb. İllərin təcrübəsi onu peşəkar döyüşçü kimi formalaşdırıb. Xidməti dövründə zabitin uğurları çox olub. Azərbaycanın hərb tarixinə aprel zəfəri kimi düşən savaşda zabit N.Məmmədov da tabeliyindəki döyüşçüləri ilə böyük uğura imza atıb. Lələtəpə yüksəkliyinin ermənilərdən azad edilməsində onların da müstəsna xidmətləri olub. Təlimlərdən söz düşəndə zabit deyir ki, öncə əsgərin fərdi ixtisas hazırlığına ciddi önəm verilir. "Tədris edilən mövzuların əsgərlər tərəfindən mənimsənilməsi ilə bağlı məqbullar götürülür. Buna görə də hər bir zabit gizir və əsgərlərə hərbi bilikləri daha dərindən aşılamağa çalışır. Şəxsi heyət də öz növbəsində bilik və bacarıqları mükəmməl mənimsəyir."



O, söhbətimizdə mühəndis-istehkam bölməsinin fəaliyyətini yüksək qiymətləndirdi. Bildirdi ki, baş leytenant Samir Əsgərov qarşıda duran döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirmək üçün zəruri vərdişləri tabeliyində olanlara yetərincə aşılayır.

Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılması istiqamətində yetərli xidmətləri ilə tanınan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "İgidliyə görə" medalına layiq görülən zabit Seymur Həbibullahovla istehkamçıların məşğələ yerinə gəldik. Əsgərlər qruplara bölünərək müxtəlif yerlərdə tank və piyada əleyhinə təlim minaları ilə məşqlərini davam etdirirdilər. Baş leytenant Samir Əsgərov öncə minalanması nəzərdə tutulan əraziyə diqqət yetirdi. Onlar təlim yerində minaları basdırmaq üçün ərazini düzgün seçmişdilər. Əsgərlər tank əleyhinə minaları düşmənin texnikalarının keçmək ehtimalı olan yerləri seçmişdilər. Zabit qrup rəhbərlərinin qərarıyla razılaşdı və bir daha minaların basdırılmasına diqqət yetirdi. Bayaqdan istehkamçıların fəaliyyətini maraqla izləyirdim. Sonra məşğələ rəhbərinə yaxınlaşdım. Baş leytenant S.Əsgərov öncə özünü təqdim etdi. Təlimin mövzusu artıq bizə məlum idi. Əsgərlərin dərsi necə mənimsədiyinə gəlincə, zabit söylədi ki, xidmət müddətindən asılı olmayaraq onların hər biri ixtisas üzrə yetərincə bilik və bacarıqlara yiyələniblər. "İstehkamçılar istifadəmizdə olan bütün minaların taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilirlər. Nəzəri biliklərlə bərabər çalışmaları təcrübi yerinə yetirməyi bacarırlar. Bundan başqa, əsgərlər başqa bir qrup tərəfindən basdırılan minaları aşkar edib onları zərərsizləşdirirlər".

Baş leytenant S.Əsgərov altı il öncə Ulu Öndərin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbini mühəndis-istehkamçı ixtisası üzrə bitirib. Hərbçi olmaq onun ən böyük arzusu olub. Yiyələndiyi ixtisaya gəlincə, zabit deyir ki, istehkamçı olmağım tam təsadüfdür. "Hərbi məktəbə sənədlərimi təqdim edəndə heç vaxt ixtisas barədə düşünməmişəm. Əsas hədəfim ali hərbi məktəbə daxil olmağım və zabit rütbəsində xidmətimi davam etdirməyim olub. Bu gün xidmətimdən də, həyatımdan da çox razıyam."

Orduda mühəndis peşəsi digərlərilə müqayisədə çox fərqlidir. Onların buraxdıqları ən kiçik səhv həyatları bahasına başa gələ bilər. Məhz istehkamçılardan söz düşəndə deyirlər ki, onlar bir dəfə səhv edirlər.



- Mühəndis-istehkamçı digər peşələrdən fərqli olaraq daha diqqətli, məsuliyyətli olmağı tələb edir, - deyə zabit bildirir. - Amma burada qorxulu, yaxud təhlükəli heç nə yoxdu. İstənilən mina döyüş vəziyyətinə gətirildiyi kimi, onu zərərsizləşdirmək də mümkündür. Sadəcə bu tapşırığı yerinə yetirərkən tələsməmək, təmkinli və soyuqqanlı olmalısan.

Yaxınlıqdakı manqanın fəaliyyəti diqqətimizi çəkdi və əsgərlərə yaxınlaşdım. Manqa komandiri Əli Orucov Gədəbəy rayonundandı. Hərbi xidmətinin başa çatmasına saylı günlər qaldığını desə də, torpaqlarımızı erməni vandallarından azad etməyə hər an hazır olduğunu bildirdi. O, həm də aprelin ilk günlərində cəbhədə gedən döyüşlərin iştirakçısı olub. Onunla birlikdə xidmət edən sumqayıtlı əsgər Rəşad Hüseynov da sözügedən uğurlu hərbi əməliyyatda sınaqdan çıxıb.

Ərazidə mina axtarıb onu zərərsizləşdirmək üçün xüsusi bacarıq tələb olunur. Bölmədə hamı bu işin öhdəsindən bacarıqla gəlir. Qusarlı Vadim Musayev deyir ki, silahdaşları ilə birlikdə belə məsuliyyətli tapşırıqları dəfələrlə yerinə yetirib. Əsgərlərdən Bayram Məlikov, Ənvər Həsənov, Sərxan Hüseynov, Vüqar Həsənli, Asim Hüseynov və başqalarıyla da görüşüb söhbət etdim. Onların hər birində Vətənə sonsuz məhəbbət gördüm. Əsgərlər erməni silahlılarını məhv edib doğma yerlərimizi azad etmək üçün bir nəfər kimi döyüşə hazır olduqlarını dilə gətirdilər.

Bir daha əmin oldum ki, mühəndis-istehkamçılar bundan sonra da bilik və bacarıqlarını təkmilləşdirəcək və torpaqlarımızın erməni işğalçılarından azad edilməsi yolunda öndə olacaqlar.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

## "Düşmənlə qarşıdurma xəttində əməliyyat şəraiti Silahlı Qüvvələrimizin tam nəzarətindədir"

Azərbaycan Müdafiə Nazirliyi düşmənlə təmas xəttində vəziyyətlə bağlı yayılan məlumatlara münasibət bildirib.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin bölmələrinin təxribatlarının qarşısı qətiyyətlə alınır. Düşmənlə qarşıdurma xəttində əməliyyat şəraiti Silahlı Qüvvələrimizin tam nəzarətindədir.

## Avropa İnsan Haqları Məhkəməsi Ermənistanı cərimələməklə, işğal faktını təsdiq edib

Avropa İnsan Haqları Məhkəməsi (AİHM) Azərbaycanın işğal edilmiş regionu olan Dağlıq Qarabağ ərazisinə hərbi xidmətə yola salınmış Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu Suren Muradyanın 2002-ci ildə öldürülməsi barəsində işin düzgün araşdırılmamasına görə ötən həftə Ermənistanı 50 min avro məbləğində cərimələyib. Məhkəmə işi zərərçəkənin atasının iddiası ilə əlaqədar açılıb. S.Muradyanın atası hesab edir ki, Ermənistanın hakimiyyət orqanları onun oğluna vaxtında tibbi yardım göstərilməməsində təqsirkardır.

Beləliklə, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində olması faktı Avropanın insan haqları məsələləri ilə bağlı ali məhkəmə orqanı tərəfindən növbəti dəfə təsdiq edilib.

Ermənistan Prezidenti Serj Sarkisyan bu yaxınlarda Rusiya telekanalına müsahibəsində deyib ki, "əgər Bakı qarabağlıları öz vətəndaşları sayırsa, onda nə üçün onlarla birbaşa dialoq aparmır?". Yerevanın belə çağırışları AİHM-in sonuncu qərarı nöqteyi-nəzərindən cəfəngiyat kimi səslənir. Xarici qoşunları başqa dövlətin ərazisindən çıxarın və yalnız bundan sonra Bakı öz vətəndaşlarını məmnuniyyətlə dinləyər. Nə qədər ki, bu ərazilər Ermənistan silahlı qüvvələrinin tapdağı altındadır, xarici dövlətin ordusuna pəncərəsindən tamaşa edən ölkə vətəndaşları ilə söhbət mənasızdır.

**AZƏRTAC**

# Yüksək şərait, nümunəvi xidmət

*Bu gün mənə Azərbaycan Silahlı Qüvvələrinin fəaliyyəti haqqında düzgün və obyektiv ictimai rəyin formalaşmasında, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində, hərbçilərin həyat və fəaliyyətinin işıqlandırılmasında aparıcı rola malik olan bir qəzetin əməkdaşı olmaq nəsib olub. İlk tapşırığı yerinə yetirmək məqsədilə bir vaxt sıralarında qulluq etdiyim "N" hərbi hissəsinə yola düşürük. Bu hərbi hissədə şəraitin müasir standartlara uyğun olduğunu bilmək üçün nəzarət-buraxılış məntəqəsini görmək kifayət edir.*

## Ali Baş Komandan İlham ƏLİYEV:

*Bu baza ən yüksək dünya standartlarına cavab verir, son illər ərzində Azərbaycanda yaradılmış ən böyük hərbi obyektlərdən biridir. ...Əminəm ki, ölkəmizin hərbi potensialının gücləndirilməsi üçün bu bazanın çox böyük əhəmiyyəti olacaqdır.*



Ali Baş Komandan İlham Əliyevin hərbi hissənin açılışı zamanı söylədiyi fikirlər də bunu sübut edir: "Bu baza ən yüksək dünya standartlarına cavab verir, son illər ərzində



Azərbaycanda yaradılmış ən böyük hərbi obyektlərdən biridir. ...Əminəm ki, ölkəmizin hərbi potensialının gücləndiril-



məsi üçün bu bazanın çox böyük əhəmiyyəti olacaqdır".

Hərbi hissəyə daxil olduqda şəxsi heyətin günün nizam qaydasına uyğun olaraq fəaliyyət göstərdiyini görürük. Komandanlığın icazəsindən sonra ilk olaraq əsgər yataqxanalarına baş çəkdik. Üçmərtəbəli əsgər yataqxanasında hərbi qulluqçuların məişət şəraiti üçün müasir infrastruktur yaradılıb, yataq və digər otaqlar lazımi avadanlıqlarla tam təchiz olunub. Binaların hər mərtəbəsində məişət guşələri, ideoloji və ayrı-ayrı xidməti otaqlar yerləşir. Qış rejiminə keçildiyindən bütün yataqxanalar müasir istilik sistemi ilə təmin olunub. Buradakı şərait bir daha təsdiq edir ki, son illər ölkə rəhbərliyi səviyyəsində hərbçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm layihələr yerinə yetirilir.

Növbəti baş çəkdiyimiz ünvan hərbi hissənin poliklinikasıdır. Şəxsi heyətə tibbi xidmət göstərmək missiyasını yerinə yetirən poliklinikanın, tibbin müasir texniki avadanlığı ilə təchiz edilmiş oftalmoloq, fizioterapiya, nevropatoloq, stomatoloq, cərrah, terapevt, ultrasəslə müayinə, dermatoloq və rentgen otaqları var. Poliklinika burada xidmət edən hərbçilərin müalicə proseslərini yüksək səviyyədə aparmağa geniş imkan yaradır. Otaqlara daxil olub həkimlərin və müalicə alan şəxsi heyətin fikirlərini öyrəndik. Hər bir əsgər tibb heyətinin onlara mehriban və qayğıkeşliklə yanaşdığını bildirdi. Söhbət zamanı tibb xidməti rəisi kapitan Mahir Həsənov dedi ki, həkim ilk növbədə peşə etikasına sadiq qalaraq öz davranışı, şəxsiyyəti, dünyagörüşü və insanlarla münasibəti baxımından başqalarından fərqlənməli, özünə inam yaratmağı bacarmalıdır. Məhz bundan sonra düzgün diaqnoz və müalicənin effektini görmək mümkündür.

Hərbi hissənin hamam-camaşırxana-qazanxana kompleksini gördükdə də heyranlığını gizlədə bilmirsən. Şəxsi heyətin sanitar-gigiyenik şəraitinin yaxşılaşdırılması məqsədilə tikilən müasir kompleksi gəzib baxanda adamı fərəh hissi bürüyür. Əşya xidmətinin rəisi mayor Abbasəli Mustafayev kompleksin fəaliyyətinin yüksək səviyyədə qurulduğunu bildirir: "Bütün çirkli paltarlar və yataq dəstləri qaimə əsasında camaşırxanaya təhvil verilir. Sonra burada çeşidlənir, yuyulur, qurudulur, ütülənir və nəhayət, qaimə əsasında təhvil alınır."



Müsahibim hərbi hissənin qərargah rəisinin əmrinə əsasən həftədə üç gün hamam günü keçirildiyini bildirdi: "Həmin günlərdə növbətçi feldşer, hamam növbətçisi və hamama nəzarət edən şəxs mütləq



orada olur. Şəxsi heyət yuyunduqdan sonra cavabdeh şəxslər tərəfindən sanitar-gigiyenik qaydalara əməl olunur və təmizlik yüksək səviyyədə qorunur".

Sonda əsgər yeməkxanasına baş çəkirik. Yeməkxananın foyesində uzun illər ordu sıralarında xidmət etmiş, Türkiyədə aşpazlıq təhsili almış Adışirin Həsənovla qarşılaşırıq. O, ilk növbədə hərbi hissənin ikimərtəbəli yeməkxanasının müasir avadanlıqlarla təmin olunduğunu söylədi: "Şəxsi heyətin yüksək keyfiyyətli qida məhsulları ilə təmin olunması işinin öhdəsindən layiqincə gəlir. Peşəkar aşpazların əməyi sayəsində milli xörəklərimiz yüksək keyfiyyətlə hazırlanır. Yeməkxanada, ancaq mülki işçilər işləyir. Hər gün 3-4 çeşiddə yeməklər hazırlanır. Hətta əsgərlərin yeməkləri seçim etmək imkanı yaranır. Yeməkxananın binasında yerləşən çörək sexi İtaliyadan gətirilmiş avadanlıqlarla təmin olunub. Sexdə çalışan mülki işçilərin ilk olaraq gigiyenik qaydalara əməl etdiyinin şahidi ola bilərsiniz."

Qazanxanada və əşya anbarında səliqə-sahman, təmizlik hökm sürür. Şahidi olduğumuz bu hərbi hissə kimi yüzlərlə hərbi şəhərciklər ordumuzun döyüş qabiliyyətinin daha da yüksəlməsi, madditexniki bazasının möhkəmləndirilməsi, hərbçilərimizin sosial vəziyyətinin yaxşılaşdırılmasının əsas göstəricisidir. Məhz bu göstəricilərə əsaslanıb demək lazımdır ki, Azərbaycan Silahlı Qüvvələri bu gün regionun ən qüdrətli ordusudur.

Silahlı Qüvvələrimizdə həyata keçirilən son islahatlar bu hərbi hissədə də öz təsirini göstərib. Ali Baş Komandanın diqqət və qayğısı nəticəsində hərbçilər üçün yaradılmış yüksək şərait, döyüş hazırlığı arzulanan səviyyədədir. Bu hərbi hissənin ş əxsi heyəti də torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın əmrinə hər an hazırdır...

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

Vətənpərvərlik

# Millətimizə, dövlətimizə sadiq gəncliyimiz var

*Ölkəmizdə son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı, inamlı və vətənpərvər görmək əzmindədir.*

*Binəqədi rayonunun Biləcəri qəsəbəsindəki 298 saylı tam orta məktəb şəhid məzunu İlqar Məmmədovun adını daşıyır. Şəhid məzunların adlarının məktəblərə verilməsi çox təqdirəlayiq haldır. Bu şəhidliyə göstərilən ehtiramın ifadəsi olaraq gənclərimizin vətənpərvərlik tərbiyəsində böyük önəm daşıyır.*

Məktəbin qarşısında şəhidin büstü qoyulub, girişdə isə onun xatirəsinə guşə yaradılıb. İlk öncə məktəbin direktoru Şaiqə Hüseynova ilə səmimi bir söhbətimiz oldu. 1975-ci ildən təhsil sahəsində olan direktor xalqımızın ümummilli lideri Heydər Əliyevin "Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, ölkəmizə, xalqımıza dəyərli vətəndaşlar hazırlamaqdır" sözləri ilə söhbətə başlayaraq bildirdi ki, Ulu Öndərimiz tərəfindən müəyyənləşdirilmiş strateji siyasi kursu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsilə olan diqqəti, qayğısı ilə həyata keçirilən islahatlar sayəsində ölkəmizin təhsil sistemi dünya stan-



dartlarına cavab verir. "Ataşkəs şəraitində yaşamağımıza baxmayaraq, dövlət büdcəsindən təhsilə böyük vəsait ayrılaraq az bir vaxt ərzində xeyli məktəb tikilib, əsaslı təmir olunub və müasir avadanlıqlarla təchiz edilib. Məktəbimizin səkkiz şəhidi var. Şəhidlik zirvəsinə ucalan məzunlarımız bizdə qürur və iftixar hissi yaradır. Məktəbimiz 1992-ci il avqustun 15-də "Şişqaya" əməliyyatında canından çox sevdiyi Vətən yolunda şəhidlik zirvəsinə ucalan məzunumuz İlqar Məmmədovun adını daşıyır. Şəhidin ailəsi ilə davamlı əlaqələrimiz var. Qardaşı uşaqları da bu məktəbdə təhsil alırlar. Hər il aprelin 8-də şəhidimizin ad gününü təntənəli surətdə qeyd edirik. Belə tədbirlərin şagirdlərin vətənpərvər ruhda böyüməsinə çox böyük təsiri var. Şagirdlərimiz hər dərs gününə Dövlət himnimizi oxuyaraq başlayırlar."

Daha sonra məktəbin tədris işləri üzrə direktor müavini Xatirə Rəhimbəylinin müşayiəti ilə təhsil ocağındakı şəraitlə tanış oluruq.

Dövlət himninin sədaları bizi qeyri-ixtiyari olaraq sinif otaqlarından birinə yönəldir. Sinfə daxil olarkən gördüklərimiz ürəyimizi qürurla doldurur. Birinci sinif şagirdləri əllərini ürəklərinin üzərinə qoyaraq cani-dildən himnimizi oxuyurdular. Bizim içəri girməyimizə baxmayaraq onlar himni sonadək oxudular. Nərgiz Dadaşova on beş ildir ibtidai sinif müəlliməsi işləyir. Müəllimə gələcəyimiz olan şagirdlərin Vətənə məhəbbət, xalqa hörmət və milli-mənəvi ənənələrimizə sədaqət ruhunda tərbiyə olunmasının vacibliyini bildirir. "Vətənpərvərlik insanın daxilindən gələn bir hiss olsa da, böyüməkdə olan nəslə bu hissləri dərindən aşılamalıyıq. Şagirdlərimizin layiqli vətəndaş və vətənpərvər ruhda böyüməsi üçün əlimizdən gələni edirik."

Kiçik yaşlı oğlanların hamısının "böyüyəndə kim olacaqsan?" sualına bir ağızdan "əsgər olacam" deməsi adamda könül xoşluğu yaşadır.

Sonra dərslərdə iştirak edib müəllimlərlə söhbətləşirik. Tarix fənnini tədris edən Pərvanə Məmmədova qabaqcıl müəllimlərdəndir. 22 ildir ki, pedaqoji sahədə çalışır. O da deyir ki, xalqını, millətini sevib özünü Vətəninin bir parçası bilən hər bir kəsin ən ümdə vəzifəsi cəmiyyətimizə, xalqımıza dəyərli vətəndaşlar hazırlamaqdır. Üzərimizə böyük məsuliyyət düşdüyünün fərqindəyik. Gənclərimiz vətənpərvər ruhda böyüməli, tariximizi yaxşı bilməlidirlər. İnsan ölkəsi, Vətəni haqqında nə qədər çox məlumatlı olarsa, torpağını da bir o qədər çox sevərək onu qorumağı



özünə borc hesab edər. Məktəblərdə tədris olunan bütün fənlərin gənclərə hərbi vətənpərvərlik hisslərinin aşılanması üçün böyük imkanları var.

- Hər bir Azərbaycan vətəndaşı ölkəsinin inkişafını istəyirsə təhsilə daha çox fikir verməlidir, - deyir Xatirə müəllimə. - Tədris etdiyi fəndən asılı olmayaraq müəllimin üzərinə düşən vəzifə həm də sabahımızın etibarlı təminatı üçün gənclərimizi vətənpərvər ruhda tərbiyə etməkdir. Məktəbimizdə istedadlı, vətənpərvər gənclər yetişir və biz gələcəkdə onların böyük nailiyyətlər əldə edəcəklərinə inanırıq.

Tarix dərsində Pərvanə Məmmədova ilə söhbət edərkən müəllimədən şəhid İlqar Məmmədovun hansı partada əyləşdiyini soruşdum. Bütün gözlər birinci sıraya dikildi. Mənəvi dəyəri və məsuliyyəti böyük olan bu parta arxasında əyləşən doqquzuncu sinif şagirdi Nəsimi Məmmədovla söhbətləşərkən əlaçı şagird üzərinə düşən bu məsuliyyəti dərk etdiyini bildirdi. Bir qədər çəkingənliklə "İlqar Məmmədov mənim əmimdir..." - dedi: "Gələcək həyatımda, gördüyüm bütün işlərdə onun adına layiq olacağıma və onun yolunu layiqincə davam etdirəcəyimə söz vermişəm", - deyir Nəsimi.

Gücünü dünyaya sübut etmiş bir ordunun zabiti olaraq bu günümüz üçün daha çox önəm kəsb edən bir məsələ - gənc nəslin ordu həyatına hazırlanması ilə maraqlanıram. Gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən Təfsil Məmmədov Azərbaycan Pedaqoji Universitetini bitirib. Öyrənirəm ki, rayon üzrə "Şahin" hərbi idman yarışlarında məktəbin yetərli uğurları vardır. Təfsil müəllim də başqa həmkarları kimi deyir ki, əsas vəzifəmiz gənc nəsli erkən yaşlarından hərbi ruhda böyütməkdir. "Gəncləri psixoloji baxımdan hərbi həyata hazırlamaq vacibdir. Ordumuzun dünyanın güclü orduları sırasında olmasından qürur duyuruq. Ali Baş Komandanın və Müdafiə nazirinin orduya olan diqqəti və qayğısı vətənpərvərlik baxımından çox dəyərli nümunə olmaqla yanaşı, gənclərimizə hərbi xidmətə, orduya sevgi və hörmət hisslərini də aşılayır."

Müəllimin sözlərinə görə, ötən dövrlərlə müqayisədə ordu quruculuğunda qazanılan uğurlar, aprelin əvvəllərində ordumuzun cəbhə xəttində düşmənə qətiyyətli cavab verməsi, həmçinin dövlət rəhbərliyi tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə göstərilən yüksək qayğı böyüməkdə olan nəslin vətənpərvərlik ruhunu artırır, onlarda əsgəri həyata güclü maraq doğurur. Dərsin gedişini izləyirəm, müəllim Kalaşnikov avtomatı haqqında şagirdlərə geniş məlumat verərək, silahın texniki hissələrini, atış məsafəsini, darağın doldurulub boşaldılmasını izah edir.

Burada olduğumuz zaman şəhid məzunun anası Şərifə ananın da məktəbə gəldiyini eşitdik. Belə bir qəhrəman oğul tərbiyə etmiş anayla söhbət edərkən o, ilk olaraq ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli



davamçısı Prezident İlham Əliyevə şəhid ailələrinə olan diqqət və qayğısına görə minnətdarlığını bildirdi. Məktəb rəhbərliyi tərəfindən böyük hörmətlə bütün tədbirlərə dəvət olunduğunu bildirən ana hər il oğlunun doğum gününün təntənəli qeyd edildiyini deyir.

Övladı anası qədər heç kim tanıya bilməz. Hətta düşünürəm ki, övlad bir hərəkət edib, addım atarkən onun düşüncələrini, fikirlərini ana qədər düzgün ifadə edən ikinci bir adam tapıla bilməz. Elə bu düşüncələrimlə də şəhid anası ilə söhbətləşirəm. "Məktəbi qızıl medalla bitirmişdi. İdman yarışlarında daim birinci yerə çıxardı. Şeirlər yazardı... Tibb Universitetinin ikinci kurs tələbəsi idi. Vətənini, torpağını, millətini çox sevirdi. 20 Yanvar hadisələrindən sonra rahatlıq tapa bilmirdi... Könüllü olaraq getmişdi döyüşməyə. Onun üçün Vətənindən əziz heç nə yox idi..." Ağbirçək ana üçün danışmaq nə qədər ağır olsa belə, o övladına görə qürurluydu.

Sonda bir qrup şagirdlə söhbət edirəm. Rəşad Bəkirov bildirir ki, Vətən uğrunda canından keçərək ali zirvəyə ucalan şəhid İlqar Məmmədovun adını daşıyan məktəbdə təhsil aldığım üçün fəxr edirəm. "Düşünürəm ki, vətənpərvərəm deməklə iş bitmir. Hər bir insan vətənpərvərliyini əməllərində, gördüyü işlərdə sübut etməlidir. İlqar Məmmədov kimi... Yaşadığımız dövrün biz gənclərin çiyinlərinə qoyduğu böyük məsuliyyətin fərqindəyik. Vətən bizdən hər sahədə hünər gözləyir," - Rəşad deyir.

Vaqif Rzayev isə aprelin əvvəllərində ordumuzun xalqımıza yaşatdığı qələbə sevincindən söz açdı. "Vətəni yaşadan da, ucaldan da, şərəfləndirən də bizlərik. Ordumuz qazandığı qələbə ilə bütün dünyaya gücünü sübut etdi. Qəhrəman oğullarımızın həyatı bizlərə nümunədir. Vətənə borcumuzu bu gün yaxşı oxumaqla, sabah isə orduda şərəflə xidmət etməklə verəcəyik."

Səma Göyüşova, İranə Ağayeva, Aytac Cəlilova və Xanım Ağakişiyeva söhbətlərində "Aslanın erkəyi, dişisi olmaz" məsəlini misal çəkirlər. Hər bir insanın üzərinə düşən vəzifəni ədalətlə, vicdanla yerinə yetirməsi də vətənpərvərlikdir, - deyən şagirdlər gələcəkdə Vətənimizə layiq övlad olacaqlarını bildirirlər.

Kamandar Rəhmanovun ən böyük arzusu isə hərbçi olmaq, ordumuzun sıralarında zabit kimi xidmət etməkdir.

Nurlan Xudayev, Fərid Quliyev, Nigar Ağakişiyeva, Sənubər Tapdıqova da bildirdilər ki, şəhidliyə yüksələn Vətən övladlarını özlərinə örnək hesab edirlər.

Məktəbli gənclərimizlə söhbətimdə məni sevindirən isə onların gələcək həyatlarında Vətənimizə, millətimizə layiqli övlad olmaq istəkləri idi...

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Hərbi Dəniz Qüvvələrində növbəti buraxılış mərasimi keçirilib

*Noyabrın 30-da Hərbi Dəniz Qüvvələrində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının növbəti buraxılış mərasimi keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimin açılışında Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Buraxılış mərasimində çıxış edənlər kursantları təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb və fərqlənən hərbi qulluqçular fəxri fərmanla təltif edilib. Sonda xatirə şəkli çəkilib.

*Şərh*

# Apreldən sonra Ermənistan rejimində çatlar yaranıb

Erməni təxribatlarına cavab olaraq aprelin əvvəllərində Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatından doğan rezonans Ermənistanın siyasi-hərbi rəhbərliyində dərin çatlar yaratdı. Nəticədə erməni xalqı öz "şanlı ordusunu" tanıdı, eyni zamanda bu ölkədə işğalçılığın və separatizmin dövlət səviyyəsində dəstəkləndiyi təsdiq olundu. Bu gün bəzi ermənipərəst qüvvələr, münaqişənin həllinə ikili standartlarla yanaşan bəzi qurumlar həqiqətə göz yumsalar da, əslində, hər şey aydındır. Rəsmi Yerevan 20 ildən artıqdır işğalçılıq siyasətini davam etdirməklə yenə də bölgədə sabitliyə, sülhə ən böyük təhlükədir.

Apelin ilk ongünlüyündə Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatının yaratdığı rezonans nəticəsində Ermənistanın Müdafiə Nazirliyində və kriminal rejimin başqa qurumlarında yaranan çatlar nədən ibarətdir?

İllərlə yaradılan "məğlubedilməz erməni ordusu" mifi dağıldı. Nəticədə erməni xalqı bu işğalçılıq siyasətinin iflasa uğradığını dərk etdi. Azərbaycan Ordusunun aprel qələbəsi əsgərlərimizin döyüş ruhunun, ordu ilə xalqın birliyinin təcəssümü oldu. Erməni xalqı artıq bilir ki, Azərbaycan torpaqlarında onlara yer yoxdu. Erməni xalqı, eyni zamanda dünya ictimaiyyəti də başa düşdü ki, işğal edilmiş ərazilərin hərb yolu ilə azad edilməsi mümkündür. Azərbaycan xalqı, dövləti və onun ordusu buna tam qadirdir. Bu addımın atılmamasının səbəbi isə bizim sülhsevərliyimiz, beynəlxalq qanunlara hörmətlə yanaşmamız və hələ də münaqişənin sülh yoluyla həllinə ümidimizin itməməsidir.

Bu əməliyyatdan sonra rəsmi Ermənistanın işğalçılıq siyasəti danılmaz faktlarla yenidən təsdiqləndi. Belə ki, döyüşlərdə ölənlərin əksəriyyətinin Ermənistan hərbi qulluqçularının olması və dövlət tərəfindən "separatçı cəlladların" könüllü adı altında yenidən Qarabağa göndərilərək erməni ordusunun qoyub qaçdığı səngərlərə doldurulması cəhdi və s. faktlar bu fikrə əyani sübutdur.

Apreldən sonra tam aydınlığı ilə ortaya çıxan məsələlərdən biri də Ermənistan ordusunda hökm sürən rüşvətxorluq, özbaşınalıq, korrupsiya hallarıdır. Bu ölkənin Müdafiə Nazirliyində "təmizləmə" işləri başlandı və bu proses Ohanyanın istefası ilə bitərək bu gün də davam edir. Bununla kriminal rejim bəzi vəzifəli şəxsləri günahkar bilərək xalqı sakitləşdirmək və aprel uğursuzluqlarına səbəb olan səriştəsizlikləri ört-basdır etmək istəyir. Deyilənlərə sübut olaraq yüksək rütbəli ordu mənsublarının işdən azad edilməsi və cinayət məsuliyyətinə cəlb olunması barədə məlumatları göstərmək olar. Apreldən bu günə 20-yə yaxın yüksək rütbəli ordu mənsubu ya tutduğu vəzifədən azad edilib, ya da cinayət məsuliyyətinə cəlb olunub. Sonuncu yayılan xəbəri, qondarma Dağlıq Qarabağ Respublikası Parlamentinin sabiq deputatı Vaan Badasyanın Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Movses Akopyana dair bəyanatlarını göstərmək olar. Bəyanatda qeyd olunur ki, "Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Movses Akopyan Ermənistan Respublikası Müdafiə Nazirliyinin maddi-texniki təminat üzrə departamentinin rəhbəri olduğu dövrdə dövlət satınalmaları prosesində talançılığa yol verib. M.Akopyan orduya buğda tədarükü haqqında müqaviləni yuxarı, şişirdilmiş qiymətlərlə və özünə məxsus olan şirkətlə imzalayıb ki, nəticədə "onlarla milyon dram məbləğində ordu vəsaitinin talanmasına yol verib."

Döyüşlər gedən ərəfədə işğal olunmuş ərazilərdə məskunlaşan ermənilərin həmin bölgədən çıxmasının qarşısını almaq məqsədilə yollarda və marşrutlarda hərbi polis və Daxili İşlər Nazirliyinin əməkdaşlarından ibarət "sədd" çəkilmişdi.

Ölkədə hökm sürən rejim demoqrafik böhranın qarşısını almaq məqsədilə müxtəlif hiylələrə də əl atır. Yerevan hökuməti Ermənistanda, eləcə də dünyanın başqa qaynar nöqtələrində yaşayan ermənilərin də "tarixi vətənlərinə" - işğal edilmiş ərazilərə köçürülməsinə nail olmaq üçün nələr eləmir? Reallıqda Ermənistanın özündə, bölgələrdə ictimai-siyasi və sosial-iqtisadi vəziyyət o dərəcədə acınacaqlıdır ki, hətta Suriyadan qaçan erməni ailələri nəinki işğal olunmuş bölgələrdə, eyni zamanda Yeravandan başqa heç bir yerdə yaşamağa razı olmur, Avropa və digər ölkələrdə məskunlaşmağa üstünlük verirlər.

Aprel döyüşlərindən sonra, elə indinin özündə də müxtəlif televiziyalarda, saytlarda erməni rəhbərliyinin səriştəsizliyi ucbatından bu ölkədə hərbçilərin düşdüyü ağır vəziyyət şərh edilir. Hərbi qulluqçular fikirlərini sosial şəbəkələrdə bölüşməkdən çəkinmirlər. Ermənistan silahlı qüvvələrində kəşfiyyatçı kimi xidmət edən hərbi qulluqçu Arsen Xaçatryan aprel döyüşləri haqqında bildirib ki, türklər (Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları nəzərdə tutulur - İ.İ.) bizim mövqelərə çox sayda qüvvə ilə girdilər. "O döyüşdə 4 nəfərimiz öldü, 3 yaralı və biz 2 nəfər xilas ola bildik." A.Xaçatryanın noyabrın 17-də sosial şəbəkədə paylaşdığı məlumata görə, həmin döyüşdə məğlub olmalarının və mövqeləri tərk etmələrinin səbəbi döyüş sursatlarının azlığı və təminatın olmamasıdır. Belə faktlar çoxdur və bu günlərdə epress.am saytında dərc olunan Helsinki Vətəndaş Assambleyasının Ermənistandakı Vanadzor ofisi əməkdaşlarının aprel döyüşlərində ölən və yaralanan hərbçilərin qohumları ilə söhbətlər əsasında hazırladığı hesabat da dediklərimizi təsdiq edir.

Hərbi qulluqçuların ölümü ilə maraqlanan qohumları döyüşdə ölənlərin həddən artıq çox olmasını silah və sursatın çatışmazlığı, eləcə də hərbi əməliyyatların başlanması ilə bağlı kəşfiyyat məlumatlarının olmaması ilə əlaqələndirirlər. Onlar Cəbrayıldakı vəziyyəti başıpozuqluq adlandırıblar. "Qubadlıdan Cəbrayıla doğru yolda çoxlu sayda xarab tanklar düzülmüşdü. Onların çoxunda yanacaq əvəzinə su vardı. Ön xəttə getmək üçün tankları işə salanda yararsız vəziyyətə düşürdülər." Ölənlərin valideynləri bildiriblər ki, onlar gedib çox şeyləri danışmalıdırlar, çünki əsgərlər bu barədə danışmağa qorxurlar.

Oğlu aprelin 2-də Cəbrayılda ölən əsgərin atası da silahların çatışmazlığı və hərbi texnikanın xarab olmasından narazılığını bildirib. Deyir ki, aprelin 10-dək o, Qarabağda olub və baş verənləri şəxsən görüb: "Niyə tanklar irəli getmədi? Çünki akkumulyatorları yox idi: Onlar bazarda satışa qoyulmuşdu. PDM-lər lazım olan yerə gedib çata bilmirdilər, çünki çəndə yanacaq yerinə su var idi. Könüllüləri lazımi qədər patronla təmin edə bilmirdilər. Hərəyə 60 patron verirdilər, hansı ki, onlar da cəmi dəqiqə yarımdan sonra qurtara bilər."

Həmçinin bildirirlər ki, əsgərlərin ölümünün səbəbi əmrin düzgün verilməməsi, təhlükəsizlik vasitələrinin olmaması, döyüş sursatının qurtarması ilə əlaqədardır. Aprelin 2-də Ağdərədə ölən hərbçinin valideynləri onun komandiri ilə görüşüb və döyüş mövqeyinin 3-cü xəttində olan oğlunun niyə zirehli gödəkçədə olmadığını soruşublar. Komandir deyib ki, zirehli gödəkçələr azdır, ona görə də, ilk növbədə, öndəkiləri təmin edirlər. Valideynlər əmindirlər ki, hətta bu hadisələrdən sonra da hərbçilər təhlükəsizlik vasitələri ilə təmin edilməyiblər.

Azərbaycan Silahlı Qüvvələri tərəfindən apreldə əks-həmlə əməliyyatı zamanı məhv edilən erməni hərbçilərinin yaxınlarının danışdıqlarından da məlum olur ki, Ermənistan ordusunda vəziyyət acınacaqlıdır, silah-sursat çatışmır, döyüş texnikası nasazdır, orduda korrupsiya və özbaşınalıq baş alıb gedir.

Bir sözlə, apreldə Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatından doğan rezonans Ermənistanda hökm sürən kriminal rejimdə, eləcə də onun Müdafiə Nazirliyində dərin çatlar yaradıb ki, bunun nəticəsində də bu rejimin dağılması qaçılmazdır.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

# Xəbərlər: hadisələr, faktlar

## Çində 22 nəfər kömür şaxtasında dağıntılar altında qalıb



Çinin Xeyluncian vilayətində kömür şaxtasında baş vermiş partlayış nəticəsində 22 nəfər dağıntılar altında qalıb. Yerli vaxtla noyabrın 30-da axşam 21:00 radələrində baş vermiş partlayışın səbəbi hələlik məlum deyil.

Yerli hüquq mühafizə orqanları müəyyən edib ki, özəl şirkətə məxsus olan kömür mədəni lisenziyasız fəaliyyət göstərirmiş. Hazırda polis bu istiqamətdə təhqiqat aparır. Bununla yanaşı, axtarış-xilasetmə işləri davam edir.

## ABŞ-ın yeni Prezidenti biznes fəaliyyətindən uzaqlaşacaq



ABŞ-ın yeni seçilən Prezidenti Donald Tramp prezidentlik səlahiyyətinin icrasına başladıqdan sonra biznes fəaliyyətindən uzaqlaşacağını açıqlayıb.

O, yeni planları barədə gələn ay keçirəcəyi mətbuat konfransında məlumat verəcəyini bildirib.

Qeyd edək ki, onun övladları artıq Tramp imperiyasının bir sıra ölkələrdəki biznes sahələrinə rəhbərlik edirlər.

## Türkiyədə şagird yataqxanasında baş verən yanğında 12 nəfər ölüb



Türkiyənin Adana vilayətinin Aladağ rayonunda axşam saatlarında şagird yataqxanasında yanğın baş verib.

Yanğın nəticəsində 12 nəfərin öldüyü, 22 şagirdin isə xəstəxanaya yerləşdirildiyi bildirilir. Yanğının elektrik xətlərində qısaqapanmadan baş verdiyi ehtimal olunur.

## Maksim Oreşkin Rusiyanın yeni iqtisadi inkişaf naziri təyin edilib



Rusiya Prezidenti Vladimir Putin Maksim Oreşkini ölkənin yeni iqtisadi inkişaf naziri təyin edib. M.Oreşkin bundan əvvəl maliyyə nazirinin müavin vəzifəsində çalışırdı.

M.Oreşkin Rusiya Ali İqtisadiyyat Məktəbinin məzunudur. Rusiya Mərkəzi Bankında, "Rosbank"da, "BTB Kapital" banklarında müxtəlif vəzifələrdə çalışıb. O, 2015-ci ildə Rusiyanın maliyyə nazirinin müavini təyin edilib.

Xatırladaq ki, Maksim Oreşkinin sələfi Aleksey Ulyukov korrupsiyada ittiham olunaraq həbs edilib.

## Kolumbiyada təyyarə qəzasında ölənlər arasında 20-dən çox jurnalist var



Kolumbiyada baş verən təyyarə qəzası nəticəsində ölənlər arasında Braziliya KİV-lərinin 21 əməkdaşı olub. Bu barədə Braziliya Jurnalistlərinin Milli Federasiyası məlumat yayıb.

Təşkilatın məlumatına görə, həyatını itirən jurnalistlərin əksəriyyəti Rio-de-Janeyro, San-ta-Katarina və San-Pauludan olan KİV əməkdaşlarıdır. Peşəkar qəzet, radio və televiziya idman jurnalistləri Kolumbiyada keçiriləcək futbol oyununu işıqlandırmağa gedirdilər.

Xatırladaq ki, göyərtəsində 72 sərnişinin, o cümlədən Braziliya futbolçularının və 9 ekipaj üzvünün olduğu təyyarə Medelin şəhərinin yaxınlığında qəzaya uğrayıb. Təyyarənin göyərtəsindəki 81 nəfərdən 75-i həlak olub.

**AZƏRTAC-ın materialları əsasında**

*Əvvəl şeir yaranır; duyğulardan ürəyə süzülür, beşiyi ürək olur şeirin. Yaxşı şeirin, mahiyyətli şeirin, yüksək bədii dəyərə malik olan şeirin, misra-misra düşündürən, düşündürə-düşündürə yaşadan, yaşada-yaşada düşündürən, düşüncələri Vətənə, torpağa kökləyən şeirin...*

Düşüncələr

# “Yol verin, əsgər gəlir!”



Bəzən şeiri hadisə yaradır. Mahiyyətində Vətən olan, torpaq olan şeir duyanlara məfkurə kimidi; ürəyimiz məfkurə üçün yazılan, məfkurə kimi dərk edilən şeirə həmişə açıqdı. "Yol verin, əsgər gəlir!" şeiri kimi. Bu şeir olduqca kövrək bir məqamın təsiriylə yazılıb. O məqam Vətən üçün yaşanılan məqamıydı. Abdulla Qurbani o məqama söz ömrü verdi...

1994-cü ilin martında Ömər aşırımı uğrunda döyüşlər gedirdi. İstər hava şəraiti, istərsə də relyef döyüşün gedişini çətinləşdirirdi. Əsgərlərimiz Vətən adına vuruşur, Vətən üçün vuruşur, işğalı son nəfəsinə çataqlamaq üçün vuruşurdu. Nizami də onların sırasındaydı. Gah tutulan, gah açılan havanın şıltaqlığı onların döyüş əzminə, qələbə əzminə təsir göstərə bilmirdi.

Nizaminin sol qolu üyüşürdü - yaralanmışdı...

Onu döyüşün içindən çıxardıb aşağı aparırdılar. Abdulla Qurbani ağır yaralanmış əsgərin həyatının xilası üçün tələsdirirdi sürücünü. Son çarə kimi, son ümid kimi. Dumanıydı. Maşın dumanı yara-yara yaralını ölümdən ömürə aparırdı...

Su istədi Nizami: - Bir içim su...

Ürəklərinə daman dammışdı. Maşını saxladılar. Yaralıya qardaş şəfqətiylə su verdilər. Getdikcə nəfəsi təngiyirdi Nizaminin. Uzaqlardan atəş səsləri gəlirdi. O səsləri də, ötüb keçən maşınların uğultusunu da hiss eləyirdi. "Gedin" - dedi. "Ora gedin. Köməyə..." - son kəlmələri ağırlaşmışdı...

Maşınların aramsız, nizamsız fit səslərini də eşidirdi yaralı əsgər. Çətinliklə də olsa dirsəkləndi. Naməlumluğa sarı boylandı. Özünü toxdadıb ağır-ağır dilləndi:

- Elə bil toydu. Bir azdan "Vağzalı" səslənəcək elə bil...

Qəhərlənmişdi...

Kəlmələr közə dönüb dodaqlarını yandırmaqdaydı...

Nə düşmüşdü yadına? - kəndlərində toylarda meydan boyu oynadığı günlərmi, kimsənin duya bilməyəcəyi baxışlarla qızların sırasında sevdasını aradığı anlarmı, "Vağzalı" səslənincə ürəyi uçunanların duruşumu?..

Nələr düşmüşdü yadına? - bulaq başında kələmləşən analarmı, subay oğul anasının səhəngini dolduran sonalarmı?

Nələr düşmüşdü yadına? - murazlı cavanların yerişi-duruşumu, murazlı qızların ürkəcək baxışımı? Ocağı sönənlərmi, gülü yarpıza düşənlərmi? Şəhid olan əsgər dostlarımı düşmüşdü yadına? Nələr? Nələr?..

Döyüşlərə gedəndə o da "Gözlə, gələcəm..." - demişdi, "Gözləyəcəm..." - kəlməsini eşitmişdi...

Qarmaqarışıq maşın səslərini yaralı əsgər də eşidirmiş. “O nə səslərdi?” - soruşdu. “Döyüşə gedirlər...” - ona bildirdilər. Yaralı əsgər udqundu. Sonra dilləndi: “Evimizə gəlin gəlir” mahnısını çox eşitmişik”. Abdulla Qurbaniyə xitabən "Yol verin, əsgər gəlir!" - şeiri yaz. Qalib əsgər gəlir, eyyy. Mən o şeirdə yaşa-ya-cam", - dedi. Son nəfəsi bu kəlmələrə sığınıbmış...

Yüksək bədii dəyərə malik olan şeir yazıldı...

Şeirə tanınmış bəstəkar Rauf Məmmədov musiqi bəstələdi. Onu Müdafiə Nazirliyi nümunəvi hərbi orkestrinin müşayiəti ilə xalq artisti Zümrüd Məmmədova oxudu.

"Yol verin, əsgər gəlir!" mahnısı hamımızın mahnımızdı. Həm də Nizaminin timsalında bütün şəhidlərimizin ruhunun mahnısıdı...

Yaxın vaxtlarda torpaqlarımız işğaldan azad ediləcək. Bütün məmləkət boyu qalib Azərbaycan əsgərini görüncə hamı "Yol verin, əsgər gəlir!" - deyəcək. Qalib əsgərlərə qürurla, sevgilərlə baxacağıq, Nizamini, Nizamiləri kövrəkliklə xatırlayacağıq...

Yaxın vaxtlarda "Yol verin, əsgər gəlir!" mahnısı möhtəşəmliklə səslənəcək. Nizaminin, Nizamilərin ömür yolunu qardaş sədaqətiylə davam etdirən əsgərlərimizə görə səslənəcək: "Yol verin, əsgər gəlir!"...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# İstedad rəsmlərdə...



*Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseydə kursantların bədii özfəaliyyət dərnəyinin rəsm sərgisi keçirildi. Bu sərgidə rəsm əsərləri nümayiş etdirildi.*

Kursantlar həm zirehli texnikaların, həm də müxtəlif silahların rəsmlərini çəkmişdilər. Onlar həmçinin xalqımızın qan yaddaşı olan Xocalı və 20 Yanvar faciələrini də fırçanın dili ilə tamaşaçılara çatdırmağa çalışmışdılar.

Bir azdan Hərbi liseyin rəisi polkovnik Rüfət Əmirov da kursantların bədii özfəaliyyət dərnəyinin rəsm sərgisinə baxmağa gəldi. Sərgidə on beşdən çox rəsm əsəri nümayiş olunurdu. Lisey rəisi bir-bir rəsm əsərləri ilə tanış oldu. Kursantlar çəkdikləri rəsm əsərləri haqqında geniş məlumat verdilər. Danışdıqca gələcək zabitlərin gözləri gülürdü. Dərnək üzvləri ünvanlanan sualları ətraflı cavablandırmağa çalışırdılar. 3-cü kursun kursantlarının səlis danışığı, davranışı, aydın nitqləri, düzgün tələffüzləri onların gələcəkdə ordu üçün təcrübəli zabit, ölkə üçün gərəkli vətəndaş olacaqlarından xəbər verirdi. Bütün bunları gördükcə ürəyimiz açılır, üzümüz gülürdü.

Hərbi liseyin rəisi rəsm əsərlərinə baxdı, həm də onları öz təxəyyüllərinin gücü ilə yaratmış kursantlarla söhbət etdi, yaradıcılıqlarına qiymət verdi. Onlara lazımi məsləhət və tövsiyələrini verdi, yaradıcılıq uğurları arzuladı.

Rəsm əsərlərinə baxış başa çatandan sonra kursantların mükafatlandırılması mərasimi keçirildi. Sərgidə əsərləri nümayiş olunan kursantlar həm qiymətli hədiyyə, həm də fəxri fərmanlarla mükafatlandırıldı. Onlara mükafatları Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov və zabitlərdən Fuad Şərifzadə, Kamran Nəsibov, Qorxmaz Əbilov və başqaları təqdim etdilər.





Sərgidə əsərləri nümayiş olunan kursantlardan Xəzər Nəsibli, Məhəmməd Abbasov, Kamran Quliyev, Əziz Qurbanov, Əli Ələkbərov, Elmar Haqverdiyev və başqaları ilə yaxından tanış oldum. Onlar əsərlərinə belə yüksək dəyər verilməyinə görə məmnun qaldıqlarını bildirdilər.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**



# Əsgərlərimizin sağlamlığının keşiyində

*Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində ezamiyyətdə olarkən tibb məntəqəsi ilə tanış olmaq imkanı qazandıq.*

Tibb xidməti leytenantı Nicat Cəfərlinin tibb məntəqəsinin rəisi olduğunu öyrənirik. Sadə bir ailədə dünyaya göz açmış Nicat Azərbaycan Tibb Universitetini bitirib. 2015-ci ildən hərbi xidmətdə olan gənc həkim zabit və əsgərlərimizin sağlamlığı naminə əlindən gələni əsirgəmir.

O deyir ki, axı Şuşa, Kəlbəcər, Laçın, Qubadlı, gözəl Qarabağımız hələ də düşmən tapdağındadır. “Gənc nəsillər İsa bulağından su içməyib, dədə-babalarımızın uyuduqları torpaqlar yolumuzu gözləyir.”

Növbəti həmsöhbətimiz isə tibb xidməti baş leytenantı Vasif Məmmədovdur. O da ömrünü şərəfli həkim peşəsinə bağlayanlardan biridir.

Azərbaycan Tibb Universitetinin stomatologiya fakültəsini 2001-ci ildə bitirdikdən sonra hərbi xidmətə yollanıb. Ehtiyat zabit hazırlığı kursunu bitirdikdən sonra tibb xidməti leytenantı olaraq Naxçıvandakı "N" hərbi hissəsində xidmətə başlayıb. Xidmətini başa vurduqdan sonra bir müddət mülki stomatoloq kimi işləsə də, hərbi həkimliyin daha məsuliyyətli və şərəfli olduğunu bilərək 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb.

Təcrübəli stomatoloqla əsgər Saleh Əmirovu müayinə edərkən həmsöhbət oluruq. Stomatoloji kabinet səliqə-sahmanı ilə göz oxşayır. Həkim deyir ki, əsgərin dişinin periostiti və ağıl dişinin çətin çıxması müayinə zamanı aşkar olunub.

Xaçmaz rayonundan hərbi xidmətə çağırılan əsgər Saleh Əmirov 17 aylıq hərbi xidmətində tibb məntəqəsinə ilk dəfə müraciət etdiyini deyir. O bildirir ki, həkimlər və tibb personalı müalicə-müayinə üçün müraciət edənlərə həmişə diqqət və qayğıyla yanaşır, lazımi köməyi göstərirlər.

Hər bir zabit, əsgər onların sağlamlığının keşiyində dayanan həkimlərdən razıdır. Aprel döyüşləri zamanı fərqlənənlər arasında şəfalı əllərin sahibləri də vardı. Məhz onların səyilə neçə-neçə yaralıya vaxtında dəqiq tibbi yardım olunub.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

Baş leytenant Əsgərov Elçin Əli oğluna 2013-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Qəmbərov Elxan Səxavət oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | mayor Bəxtiyar ƏLİYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 581 Nüsxə 4650 |